*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received: 05.09.2025*
*Kabul tarihi |Accepted: 13.11.2025*
*Yayın tarihi |Published: 25.12.2025*

**Akif Nağı**

**https://orcid.org/0009-0005-9762-1886**
*PhD in History, Associate Professor, Department of History, Azerbaijan Technical University, Azerbaijan, akif_nagi@yahoo.com*

*Atıf Künyesi | Citation Info*

Nağı, A. (2025). Azərbaycan Əhalisinin e.ə. I Minillikdə Etnik Tərkibinə Dair. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (6), 433-445.

# Azərbaycan Əhalisinin e.ə. I Minillikdə Etnik Tərkibinə Dair

***Xülasə***

*Azərbaycan dövlətçilik tarixinin qədim dövrünə dair bir sıra məsələlərin dəqiqləşdirilməsinə, yeni faktların elmi dövriyyəyə daxil edilməsinə və fərqli yanaşmaların nəzərə alınmasına ehtiyac vardır. Məqalədə eramızdan əvvəlki I minillikdə Azərbaycan əhalisinin etnik tərkibi təqdim edilir, həmin dövrə qədərki etno-siyasi reallıqlar əks olunur, regiona yeni tayfaların gəlişi və bu proseslərin sosial-siyasi vəziyyətə təsiri araşdırılır. Əvvəlki etnosların – lullubi, kuti, kas (kaspi), turukki və su tayfalarının mövcudluqlarını davam etdirməsi, eləcə də oğuz (quz, iskit, skif) tayfalarının regiona dönüşü məsələləri vurğulanır. Həmçinin, bəzi elmi təhriflərin aradan qaldırılması və məsələyə alternativ yanaşmanın formalaşdırılması məqsədi güdülür.*

***Açar sözlər***: *etnik tərkib, lullubi, kuti, oğuz (quz, iskit, skif), Avesta, Azərbaycan.*

# On the Ethnic Composition of the Population of Azerbaijan in the 1st Millennium BC

***Abstract***

*There is a need to clarify certain issues related to the ancient period of Azerbaijani statehood, incorporate new evidence into scholarly discourse, and consider alternative perspectives. This article presents the ethnic composition of the population of Azerbaijan during the 1st millennium BC, reflecting the ethno-political realities of the preceding period, the arrival of new tribes in the region, and the impact of these processes on the socio-political situation. It highlights the continued presence of earlier ethnic groups—such as the Lullubi, Kuti, Kas (Caspians), Turukki, and Su tribes—as well as the return of the Oghuz (Guz, Ishkuzai, Scythian) tribes to the region. Furthermore, the study attempts to eliminate certain scholarly distortions and proposes an alternative interpretive approach.*

***Keywords***: *ethnic composition, Lullubi, Kuti, Oghuz (Guz, Ishkuzai, Scythian), Avesta, Azerbaijan.*

## Giriş

E.ə. I minilliyin ilk yarısında həm Azərbaycan dövlətçiliyi o dövr üçün yüksək inkişaf səviyyəsinə çatdı, həm də etnik, dil, mədəni proseslərin daha aydın mənzərəsi yarandı. Bütün proseslərə Azərbaycan və azərbaycanlı prizmasından yanaşmalıyıq. Azərbaycan dövləti ifadəsi ilə yanaşı Azərbaycan dili, xalqı, mədəniyyəti kimi ifadələr işlədilməlidir. Bir daha qeyd edək

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com***

ki, dövlət varsa, deməli xalq da artıq mövcuddur. Dövləti xalq yarada bilərdi. Arattalı, Lullubi, Kuti sülalələrinin dövründə Azərbaycan xalqı formalaşmasının ilkin mərhələsini yaşayırdı. Yaradılan dövlət də xalqın inkişaf səviyyəsinə uyğun idi. Manna, Maday (Midiya), Oğuz (quz, iskit, skif), Əhəməni sülalələrinin dövründə isə klassik dövlət quruluşu yaradan Azərbaycan xalqı meydanda idi. Ona görə də Azərbaycan xalqının təşəkkülü e.ə. I minilliyin birinci yarısına aid edilməlidir. Məhz formalaşmış xalqın içərisindən türkdilli Manna, Maday (Midiya), Oğuz (quz, iskit, skif), eyni zamanda farsdilli Əhəməni sülalələri yüksələ bilərdi. Azərbaycan əhalisinin bu dövrə aid etnik tərkibi ilə bağlı çoxlu dolaşıq, anlaşılmaz yanaşmalar, təhriflər, saxtakarlıqlar mövcuddur. Bu baxımdan mövzunun işlənilməsinə, mənbələrin dəqiq şərh olunmasına, köhnə rus-sovet konsepsiyasının bir çox müddəalarının aradan qaldırılmasına ehtiyac vardır.

**Azərbaycanın Etnolinqvistik Formalaşması və Avesta Mirası**

Azərbaycan xalqı Ural-Altay (Türk), Hind-Avropa və Qafqaz dil ailələrinə mənsub olan etnosların bir-birinə qaynayıb-qarışması nəticəsində formalaşmışdır. Əhalinin əksəriyyətini türkdilli tayfalar təşkil etmiş, ümumi danışıq dili də türk dili olmuşdur. Əhəmənilər hakimiyyətə gəldikdən sonra fars dilinin mövqeyini gücləndirməyə çalışmış, sarayda fars dilinə üstünlük vermiş və bu dildə qayaüstü yazılar və digər sənədlər yaratmışdılar. Lakin türkdilli madayları idarəetmədən uzaqlaşdırmaq mümkün olmamış, onların dili xalq arasında geniş şəkildə istifadə olunmağa davam etmişdir. Türk-maday dili əhalinin gündəlik danışıq dili olaraq qalmış, fars dili isə geniş yayılmamışdır.

Qeyd edilməlidir ki, Əhəmənilər bir çox elementi midiyalılardan mənimsəmişdilər. Herodotun da bildirdiyi kimi, *"farslar midiyalıların geyimini də özlərinə götürdü"* (Herodot, 1998). E.ə. I minillikdə həm dövlətlərarası təmaslarda, həm də ölkələrin daxilində əsasən arami dili istifadə olunurdu. Əhəmənilər dövründə bu dil Azərbaycan ərazisində də rəsmi yazışma dili olmuşdur (Azərbaycan Milli Ensiklopediyası, 2009). Aramilər və ya arameylər Suriya ərazisində köçəri həyat tərzi sürmüş, dillərinin geniş yayılmasına baxmayaraq, öz dövlətlərini qurmağa nail ola bilməmişdilər. Onların danışıq dili Sami dil ailəsinə daxil idi və müəyyən mənada ivrit dili ilə yaxınlıq göstərirdi. Əhəmənilər, təbii olaraq, fars dili və mədəniyyətinin üstünlüyünü təmin etmək niyyətində idilər, lakin bu məqsədə tam şəkildə nail ola bilməmiş və Azərbaycan dövlətinin etno-mədəni xarakterini dəyişdirməkdə uğur qazana bilməmişdilər. Bu siyasətə qarşı madaylar əvvəldən ehtiyat göstərmiş və Əhəmənilərin hakimiyyətə gəlməsinə müqavimət göstərmişdilər.

Bu kontekstdə Herodotun çatdırdığı bir tarixi məqam diqqət çəkicidir. O yazır ki, kahin maqların başçılığı ilə madaylar hökmdar Astiaqa müraciət edərək, onun hakimiyyətini

qorumağın zəruriliyini ifadə etmişdilər. II Kirin Astiaqa qarşı üsyan qaldırdığı dövrdə, madaylar belə deyirdilər: *"Bizim üçün, hökmdar, hər şeydən vacib sənin hakimiyyətini möhkəmləndirməkdir, yoxsa hakimiyyət… farslara keçərsə, madaylar yad adamlar kimi qul edilər, farsların nifrət mənbəyinə çevrilər"* (Herodot, 1998, s. 17).

Bu tarixi fakt, o dövrdə artıq etnik mənsubiyyət və milli təəssübkeşlik duyğularının formalaşmağa başladığını açıq şəkildə göstərir. Azərbaycan əhalisinin etnik tərkibi təxminən iki min il əvvəlki vəziyyətdən əhəmiyyətli dərəcədə fərqlənmirdi. Əsas etibarilə lullubi, kuti, su və turukki tayfalarının törəmələri bu tərkibin əsasını təşkil edirdi. Manna və maday tayfalarının genetik kökləri də məhz bu qədim tayfalara dayanırdı. Bu qrupların türkdilli olduqları elmi tədqiqatlarla da təsdiqlənmişdir (Kazımov, 2003). Herodotun qeyd etdiyi altı maday tayfası — paretakenlər, struxatlar, buslar, budilər, arizantlar və maqların etnik mənsubiyyəti barədə müxtəlif yanaşmalar mövcuddur. Bununla belə, bu mövzu ətrafında hələ də qəti elmi konsensus yoxdur. Xüsusilə maq tayfaları tədqiqatçıların diqqətini daha çox cəlb edir. Əksər araşdırmaçılar maqları türk mənşəli hesab edirlər (Yusifov, 1993). Maq tayfalarının müasir dövrdəki izlərini ölkəmizdə geniş yayılmış mük və muğ tayfalarında müşahidə etmək mümkündür. Manna, Maday, Muğan kimi toponimlər də bu tayfalarla bağlıdır. Əlavə olaraq, bu tayfalar atəşpərəst inanclarla əlaqələndirilir və həmin dövrdə atəşpərəstliyin mərkəzi Azərbaycan olmuşdur. Baş məbəd də məhz burada yerləşmişdir (Kazımov, 2003). Atəşpərəstliyin müqəddəs kitabı olan *Avesta*nın e.ə. 660-cı illərdə yazıya alındığı ehtimal olunur. Ərəb dilində yazmış müəlliflərin, o cümlədən əl-Bəlazuri, əl-Qəzvini və Yaqut əl-Həməvinin əsərlərində *Avesta* kitabının və müəllifi Zərdüştün Azərbaycanla bağlılığına şübhə yeri qoyulmur (Zərdüşt peyğəmbər, 2016; Əliyarlı, 2007; Vəlixanlı, 2016; Yaqut əl-Həməvi, 2020). *Avesta* dörd əsas hissədən ibarətdir: Qatlar, Yasna, Videvdad və Yəşt. Bu hissələrdən ən qədimi olan Qatlar əsas mətndən bir neçə əsr əvvəl yazılmışdır (Fazilli, 1992). Kitab həm estetik baxımdan qiymətli ədəbi nümunə, həm də ideoloji məzmunlu dini sənəd olmaqla yanaşı, Azərbaycan tarixinin öyrənilməsi üçün də əvəzolunmaz mənbədir.

Əfsanəyə görə, kitab ilkin olaraq 12 min dana dərisi üzərinə köçürülmüşdü. Lakin bu nüsxə e.ə. IV əsrdə Makedoniyalı İsgəndərin hərbi yürüşü zamanı yanaraq məhv olmuşdur. Daha sonra III əsrdə Sasanilər tərəfindən pəhləvi dilinə çevrilmiş, yenidən kitab halına gətirilmişdir. Bununla belə, bu versiya da müasir dövrə tam şəkildə çatmamışdır (Kazımov, 2003). İlkin *Avesta* mətninin "Avesta dili"ndə yazıldığı bildirilir. Həmin dilin konkret xüsusiyyətləri haqqında mübahisələr olsa da, bəzi tədqiqatçılar onun maday və ya oğuz (quz, iskit, skif) dillərinə — yəni türk dillərinə yaxın olduğunu ehtimal edirlər.

Əhəmənilər, fars dili və mədəniyyətinin üstünlüyünü təmin etməyə çalışmış, lakin Azərbaycan dövlətinin etnik və mədəni strukturunu tam şəkildə dəyişdirə bilməmişdilər. Bu siyasətə qarşı madaylar əvvəlcədən ehtiyat göstərmiş, onların hakimiyyətə gəlməsinə qarşı durmağa çalışmışdılar. Herodotosun bildirdiyinə görə, kahin maqlar Astiaqın hakimiyyətini qorumağa çağıraraq belə xəbərdarlıq etmişdilər: *"Bizim üçün, hökmdar, hər şeydən vacib sənin hakimiyyətini möhkəmləndirməkdir, yoxsa hakimiyyət... farslara keçərsə, madaylar yad adamlar kimi qul edilər, farsların nifrət mənbəyinə çevrilər"* (Herodot, 1998, s.17). Bu fakt həmin dövrdə artıq etnik mənsubiyyət və kimlik məsələlərinin ön plana keçdiyini göstərir.

Azərbaycan əhalisinin etnik tərkibi təxminən iki min il əvvəlki vəziyyətdən çox da fərqlənmirdi; əsasən lullubi, kuti, su və turukki tayfalarının törəmələrindən ibarət idi. Manna və maday tayfalarının əsasında da bu etnoslar dayanırdı. Onların türkdilli olduqları göstərilmişdir (Kazımov, 2003). Herodotosun qeyd etdiyi altı maday tayfası — paretakenlər, struxatlar, buslar, budilər, arizantlar və maqların etnik mənsubiyyəti ilə bağlı fərqli fikirlər mövcuddur. Xüsusilə maqlar daha çox diqqət çəkir və bir çox tədqiqatçı tərəfindən türk mənşəli sayılır (Yusifov, 1993). Onlar Azərbaycanın ən qədim tayfalarından hesab olunur. Mük və muğ tayfalarının da onların bir qolu olduğu düşünülür. Manna, Maday, Muğan kimi coğrafi adlar da bu tayfa ilə əlaqələndirilir. Maqlar atəşpərəst olublar və bu dinin əsas ocağı olan baş məbəd də Azərbaycanda yerləşib (Kazımov, 2003). Atəşpərəstliyin əsas mənbəsi olan "Avesta"nın e.ə. 660-cı illərdə yarandığı güman edilir. Əl-Bəlazuri, əl-Qəzvini, əl-Həməvi kimi ərəb mənbələrində həm kitabın, həm də onun müəllifi Zərdüştün Azərbaycanla bağlılığı açıq şəkildə ifadə edilir (Zərdüşt, 2016; Əliyarlı, 2007; Vəlixanlı, 2016; Yaqut əl-Həməvi, 2020). "Avesta" dörd əsas hissədən ibarətdir: Qatlar, Yasna, Videvdad və Yəşt. Qatlar əsas mətndən bir neçə yüz il əvvəl yazılmışdır (Fazilli, 1992). Kitab həm dini sistemin ideoloji bazası, həm də Azərbaycan tarixinin öyrənilməsi üçün mühüm mənbədir. Əfsanəyə görə, əsər 12 min dana dərisi üzərində yazılmış, lakin Makedoniyalı İsgəndərin yürüşləri zamanı yanmışdır. III əsrdə Sasani hökmdarları tərəfindən pəhləvi dilinə çevrilmiş, lakin bu variant da tam şəkildə günümüzə çatmamışdır (Kazımov, 2003). İlk versiyanın "Avesta dili"ndə yazıldığı deyilsə də, bu dilin özünün maday və ya oğuz türkcəsinə yaxın olduğu təxmin edilir.

"Avesta"nın "qədim İran abidəsi" kimi təqdim olunması ən ciddi saxtakarlıqlardandır. Əsərin ruhu, ideoloji və tarixi strukturu Maday-Azərbaycan mədəniyyətinə əsaslanır. Dəfələrlə tərcümə olunmuş və farslaşdırılmasına cəhd edilsə də, əsərin mahiyyəti dəyişdirilə bilməmişdir. Kitabda nə İran, nə də fars ifadələri işlədilmişdir; əvəzində "Turan", "Turanlı", "Tur" (Türk) terminləri geniş yayılmışdır. "Ariya" ifadəsi işlədilmiş, bu sonradan farslar tərəfindən "Aryan" şəklində mənimsənilmişdir. Firdovsinin "Şahnamə"sindəki "İran-Turan" savaşının isə "Avesta"

ilə əlaqəsi yoxdur. Orada sadəcə müxtəlif türk tayfalarının mübarizəsi, eyni inancı paylaşan düşmən və dost tərəflərin Tanrıya at qurban etməsi qeyd olunur ki, bu da türk mənşəyi ilə bağlılığı göstərir (Zərdüşt, 2016; Avesta, 2005). Bu dövrdə yazı mədəniyyəti də inkişaf edirdi. Mədəni xalqlar əsasən Finikiya və arami əlifbasından istifadə edirdilər. Azərbaycanda isə yazı izlərinə nadir hallarda rast gəlinmişdir. Musa Kalankatlı qeyd edir ki, madayların öz yazıları olmuşdur (Kalankatlı, 1993). Rus-sovet tarixçiləri M. Dandamayev, V. Lukonin və I. Diakonov bu yazının mövcud olduğunu bildirmiş, Diakonov xüsusi olaraq Manna və Maday yazılarının olduğunu və fars yazısının onlardan törədiyini vurğulamışdır (Diakonov, 1956). Mixi yazı olmayan, daha çox epiqrafik simvollarla ifadə olunan Manna yazısı Yenisey yazılarına bənzəyirdi. Bəxtiyar Tuncayın tədqiqatları bu sahədə əhəmiyyətlidir. Ziviyyə (Zeyvə) xəzinəsindən tapılmış gümüş boşqab üzərindəki yazılar bu tayfaların yazı mədəniyyətinin sübutudur. Fransız arxeoloqu Roman Ghirshman "Sakkız" adının saklarla bağlı olduğunu qeyd etmişdir (Ghirshman, 1973). Ziviyyə xəzinəsində 341 əşya — qızıl, gümüş və fil sümüyündən artefaktlar aşkar edilmişdir. Andre Godard bu nümunələrə "heyvan üslubu" adını vermişdir (Godard, 1950). Oğuz incəsənətinin Ziviyyə mədəniyyətindən qaynaqlandığı vurğulanmışdır. II Sarqonun göstərdiyi "Zibiya şəhəri"nin adı bu gün də dəyişməz şəkildə qalmaqdadır (Qədim Azərbaycan tarixi, 2006). İngilis alimi Richard Barnett, Ziviyyə xəzinəsinə daxil olan əşyaların Şimali Qafqaz, Şimali Qara dəniz, Rusiyanın cənub bölgələri, Orta Asiya, Altay, Sibir və Şərqi Türküstan ərazilərində sonrakı dövrlərdə oğuz (quz, iskit, skif) kurqanlarında tapılan incəsənət nümunələrinin ilkin və daha qədim formaları olduğunu bildirmişdir (Barnett, 1962). Onun fikirlərini davam etdirən məşhur rus-sovet və osetin arxeoloqu Bagrat Tekhov qeyd edir ki, oğuzlar (quzlar, iskitlər, skiflər) Maday ərazisindən keçərək Orta Asiya və Sibirə, həmçinin Qara dəniz sahilləri vasitəsilə şimala doğru hərəkət etmişlər (Tekhov, 1980). Yəni oğuz (iskit, skif, sak, türk) tayfalarının mədəniyyəti, dini və dili Azərbaycan ərazisində, xüsusilə də Urmiya gölü ətrafında formalaşmış və buradan yayılaraq dünyanın müxtəlif regionlarında öz izlərini buraxmışdır. Bu səbəbdən də müxtəlif coğrafiyalarda tapılan oğuz (quz, iskit, skif) izlərinin kökünün qədim Azərbaycana bağlandığını artıq bir çox tədqiqatçılar qəbul etmişdir.

Bu kontekstdə Ziviyyə (Zeyvə) xəzinəsinə daxil olan məşhur gümüş boşqab üzərindəki yazıya diqqət yetirmək vacibdir. Bəxtiyar Tuncayın qeyd etdiyi kimi, bu yazı Manna sivilizasiyasına aid olmaqla Yenisey yazılarının "ulu babası" kimi qiymətləndirilir (Tuncay, 2012). Boşqab üzərindəki yazının yalnız kiçik bir hissəsi oxuna bilmişdir. B. Tuncay, xüsusilə Cənubi Azərbaycandan olan tədqiqatçı Mənsur Rəhbərinin apardığı araşdırmalara əsaslanaraq qeyd edir ki, yazı aşağıdakı kimi şərh olunmuşdur: "M-şm-ksyz-s-yz-nna-dy-d..." (qismən

oxuna bilər). M. Rəhbəri saitləri əlavə etdikdən sonra bu cür formalaşdırmışdır: "Ma-Şam-kişyezi-Asa-yaz-Nana-İdiay (dingir)." Onun təklifi ilə yazının mənası belədir: "Mazamua şahı (və ya Mazamua ölkəsinin rəhbəri) Asa Nana İdiay (yeni doğulmuş ay) tanrısına tapınır" (Tuncay, 2012). Həmin yazı qısa və natamam olduğu üçün onun tam məzmunu haqqında qəti fikir söyləmək çətindir. Bəzi tədqiqatçılar fərqli oxunuşlar da irəli sürmüşlər. Lakin burada əsas məsələ yazının semantikası deyil, onun e.ə. IX–VIII əsrə aid olması, Azərbaycan (Manna) ərazisindən tapılması və hərflərinin Yenisey yazıları ilə üst-üstə düşməsidir. Eyni zamanda, yazının türk dilində olması da bir çox tədqiqatçılar tərəfindən birmənalı qəbul edilmişdir.

Bu dövrün ən diqqətəlayiq məqamlarından biri kimi "Azərbaycan" adının ilkin formalarının ortaya çıxması qeyd edilməlidir. E.ə. VIII–VII əsrlərə aid mixi yazılarda *Andarpatkanu, Andarpatkan* və ya *Andirpattianu* adlarına rast gəlinir. Bu toponimlər Manna və Maday tayfalarının yaşadıqları əraziləri — Qızıl-Üzən çayı sahillərini və indiki Qəzvin şəhəri ətrafını əhatə edirdi (Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə, 2006; Azərbaycan tarixi, 1994). Eyni zamanda, Arbak adlı bu hökmdarın adı e.ə. 713-cü ilə aid Assuriya hökmdarı II Sarqonun salnaməsində də çəkilir. Həmin salnamədə Arbakın siyasi fəaliyyəti və bölgədəki rolu barədə əhəmiyyətli məlumatlar yer alır (Frye, 2002). Azərbaycan ərazisinə Oğuz (quz, oquz, aşquzay, işquzay, skif, sak, iskit) tayfalarının gəlişi Assuriya və digər mənbələrdə "aşquzay" və "işquzay" adları ilə qeyd olunmuşdur (Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə, 2006).

Zaur Gasanovun təhlillərinə və Ellis Minns-in araşdırmalarına əsasən, bu etnos Herodot tərəfindən "skuz" adı ilə qeyd olunmuşdur (Gasanov, 2002; Minns, 1913). "Aşquzay" və "işquzay" adları həmin türk tayfalarının öz adları olub, "döyüşən quzlar" və ya "fateh quzlar" anlamında olmuşdur (Gasanov, 2002). Herodotun "Tarix" əsərində bu xalqın adı yunan əlifbasında "skuzes" (tək), "skuzay" (cəm) formasında qeyd olunmuşdur (Minns, 1913; Diakonov, 1956; Gasanov, 2002). Bu ad sonralar "Scyth", "Skif", "İskit" formasını almışdır.

Mahmud Kaşğarlının *Qədim Türk Lüğəti* əsəri əsasında "quz" sözünün "şimal" mənası verdiyi göstərilmişdir (Gasanov, 2002; Drevnetyurkskiy slovar', 1969). Eyni zamanda "oğ-uz" (əcdad mənşə) mənası da qeyd olunmuşdur (Gasanov, 2002). Başqa bir ehtimalda isə bu sözlər "köçəri" mənasını verə bilər (Gasanov, 2002).

M. İ. Artamonov isə bu fikirləri ümumiləşdirərək yazır: *"Uz, quz, oğuz — eyni etnosun müxtəlif variantlarla adlandırılmış formalarından başqa bir şey deyildir"* (Artamonov, 1962, s. 499). Nəticədə, e.ə. VII əsrdə Azərbaycanın müxtəlif bölgələrində hərbi-siyasi fəaliyyət göstərmiş türk tayfaları (quz, oğuz) olmuşdur. Assurlar onları "aşquzay", "işquzay", yunanlar "skuz", ingilislər "scyth", ruslar "skif", türklər isə "iskit" adlandırmışlar. Pənah Xəlilovun

tərcüməsində Herodotun *Tarix* əsərində də “iskit” termini işlədilmişdir (Herodot, 1998). Lakin elmi yanaşma baxımından “oğuz” adının işlədilməsi daha məqsədəuyğundur.

Oguz (quz, iskit, skif) tayfalari en qedim dovrlerden movcud olub ve dunya tarixinde mühüm rol oynamishdir. Qedim Roma tarixchisi Gnaeus Pompeius Trogus (e.e. I – y.e. I esrleri) qeyd edir ki, oguzlar (quz, iskit, skif) hemishe en qedim tayfa hesab olunub (Trogus, 2005). Strabon da onlarin qedimliyine ishare edərək bildirir*: "Ola biler ki, Homer (e.e. IX–VIII esrler) tepegozler (kikloplar) haqqinda melumati oguzlarin (quzlarin, iskitlerin, skiflerin) tarixinden goturub"* (Strabon, 1994a). O, fikrini bashqa cur tekrar ederek elave edir ki, oguzlar (quzlar, iskitler, skifler) bizlerden chox-chox evvel yashamish ve Homerin muasirleri olmushlar (Strabon, 1994b).

Qedim yunan shairi Alkey (e.e. VII–VI esrler) Homerin Axillesini “Oguz (quz, iskit, skif) torpaqlarinin qehremañi” kimi teklif edir (Gasanov, 2002). Qedim dunyanin en meshur filosoflarindan biri ve yeddi yunan mudrikinden sayilan Anaxarsis de oguz (quz, iskit, skif) menşeli idi. O, e.e. VII–VI esrlerde yashamish, 30 il Afinada fealiyyet gostermish ve menşeyi ile fexr etmiştir (Gasanov, 2002). Herodot gosterir ki, butun bu oguz (quz, iskit, skif) tayfalarina birlikde “skolot” deyilirdi ve bu ad onların ikinci hokmdari Kolaksayin adi ile bagli idi (Herodot, 1998, IV, 6; Gasanov, 2002). Kolaksay ve onun atasi — oguzlarin birinci hokmdari sayilan Tarqitay e.e. XV esrde yashamishdir (Gasanov, 2002). Oguz (quz, iskit, skif) tayfalari Azerbaycanda e.e. II minilliyin ikinci yarisindan etibarən formalaşmağa bashlamish, e.e. I minillikde daha geniş miqyas almishdi. Bu tayfalar lullubi, kuti, turukki, su, kas, maday ve bashqa turk menşeli soylardan ibaret idi.

Bu tayfalarin Dunay, Dnepr, Don chaylari boyunca yerleşdiyi ve sonra Azerbaycana qayıtdiqlari qeyd olunur (Herodot, 1998, IV, 8, 12, 99; V, 52; Strabon, 1994c; Trogus, 2005, 2, 2). Herodot yazir ki, oguzlar bu erazilere e.e. XV esrde gelmiş, ilk hokmdarlari Tarqitay olmuşdur (Herodot, 1998, IV, 7). Araz chayini kechdikleri de bildirilir (Herodot, 1998, IV, 12). Dunay sahilinde yaşayan “sığınlar” adlanan bashqa bir tayfa midiya geyimi geyinir və midiya menşeli sayilirdi (Herodot, 1998, V). Assuriya mixi yazilarinda bu tayfa Ishpakay adi ilə taninir (Qedim Azerbaycan tarixi mixiyazili menbelerde, 2006, s.54), Herodotda Madies kimi xatirlanir (Herodot, 1998, I, 103), Rashideddinin "Oguzname" sinde Oğuz xan (Rashid al-Din, 1987). Bu paralelləri Zaur Gasanov derinden analiz edir (Gasanov, 2002). Herodot yazir ki, Oguzlar Misire yurush etmis ve oranin hokmdari onlarin qarsisinda hədiyyələrlə çıxmışdır (Herodot, 1998, I). Bu, "Oguzname"de de qeyd olunmuşdur (Rashid al-Din, 1987; Gasanov, 2002). Eyni hadisə Troqun yazisinda da yer alir: Oguz hokmdari Tanay Misire qeder getmişdi

(Trogus, 2005). Beləliklə, e.ə. VII əsrin əvvəllərində Oğuz (quz, iskit, skif) tayfaları Azərbaycana daxil olmuşlar. Herodot bu hadisəni ətraflı izah edərək göstərir ki, Oğuzlar (quzlar, iskitlər, skiflər) kimmerləri təqib edərək Midiya (Maday) torpaqlarına daxil olmuş, demək olar ki, bütün Ön Asiyanı fəth etmişlər (Herodot, 1998, VII). Burada "bütün Ön Asiya" ifadəsinə diqqət yetirmək vacibdir, çünki Azərbaycanın da bu ərazilərə daxil olduğu məlumdur.

Bu hadisənin real mənzərəsi həm yerli, həm də xarici tarixçilər tərəfindən mənbələrə əsasən təqdim edilir. Rus-sovet tarixçisi İqor Diakonov bu hadisəni e.ə. VII əsrin 70-ci illərinə aid edir və bildirir ki, hətta İncildə – İeremeyin kitabında – Aşquz dövləti haqqında məlumat verilir (Diakonov, 1956). Tədqiqatçılar hesab edirlər ki, Oğuzların (quzların, iskitlərin, skiflərin) yaratdığı bu dövlət təxminən müasir Azərbaycan Respublikasının ərazisində yerləşmişdir. Assuriyalılar bu dövləti Aşquzay, digər mənbələr isə Sakasena adlandırırdılar (Gasanov, 2002). Bununla belə, əlavə dəqiqlik lazımdır: Oğuzlar (quzlar, iskitlər, skiflər) sıfırdan yeni dövlət yaratmamış, əksinə, mövcud Azərbaycan dövlətində Manna və Maday (Midiya) sülalələrini kənarlaşdıraraq hakimiyyətə gəlmişlər. Tədqiqatçılar bu qənaətdədir ki, onlar bölgədə hakimiyyəti ələ keçirib təqribən 28 il ərzində siyasi güc olaraq qalmış, mərkəzi hakimiyyətdən uzaqlaşdırılsalar da, Sakasena kimi tanınan ərazidə təsir güclərini qoruyub saxlamışlar. Sakasena adlı bu bölgə müasir Gəncə, Arazın cənub sahilləri və Kürə qədər uzanan torpaqları əhatə edirdi. Eyni zamanda Oğuzlar (quzlar, iskitlər, skiflər) sonrakı yüzilliklərdə Azərbaycanın həm şimal, həm də cənub ərazilərində yaşamış, Madayların (Midiyalıların) hərbi yürüşlərində, Əhəmənilərin işğal cəhdlərinə qarşı mübarizədə, Makedoniyalı İsgəndərin hücumları zamanı, eləcə də Parfiya və Sasanilər dövründə hərbi güc kimi iştirak etmişlər.

"Oğuznamə"də bu tayfaların hakimiyyətdə olduğu dövrə aid "Azərbaycan" adı ilə bağlı qiymətli məlumat yer alır. Rəhilə Şükürova tərəfindən tərcümə edilmiş bu dastanın girişində qeyd olunur ki, hadisələr Oğuz xanla İnalsur xanın hakimiyyət dövrləri arasında baş vermiş, başlanğıc e.ə. VII əsrə gedib çıxmışdır (Rashid al-Din, 1987). Dastanda qeyd edilir ki, Oğuz xan Cənubi Azərbaycanda Ucan adlı bölgədə əmr verir ki, hər kəs bir ətək torpaq gətirsin. Bu torpaq bir yerə tökülərək dağ şəklini alır və Oğuz xan buranı "Azərbayqan" adlandırır (Rashid al-Din, 1987). Burada "Azər" sözü "yüksək", "bayqan" isə "uluların, varlıların yeri" kimi izah olunur.

Bu məlumatlar göstərir ki, "Azərbaycan" adı e.ə. VII əsrdən işlədilməyə başlanmışdır. Zaur Gasanov haqlı olaraq qeyd edir ki, Rəşidəddinin təqdim etdiyi Oğuznamə məlumatları heç bir siyasi məqsədə xidmət etməmiş və tarixə əsaslanan etibarlı faktlar kimi qəbul olunmalıdır (Gasanov, 2002). Eyni zamanda, qədim müəlliflər də Azərbaycanın e.ə. I minillik – yeni eranın ilk əsrlərindəki etnik mənzərəsini təsvir edirlər. Arrian (1993) (I–II əsrlər) Oğuz (quz, iskit,

skif) və massagetlərin eyni etnos olduğunu bildirir (Arrian, 1993, IV kitab). Strabon isə (e.ə. I – y.e. I əsrləri) sak və savromatları da bu etnosa aid edir (Strabon, 1994, VII kitab). Həmin müəllif həm də qeyd edir ki, Xəzər dənizindən başlayaraq bu tayfalara daylar deyilir, massagetlərin ölkəsi isə Araz çayı boyunca yerləşir (Strabon, 1994, XI kitab, VII fəsl). Herodot da massagetlərin Oğuzlara (quzlara, iskitlərə, skiflərə) bənzər geyim və həyat tərzinə malik olduğunu yazır (Herodot, 1998).

Plini (I əsr) bu bölgədə yaşayan etnosları sadalayarkən yazır: “Xəzər dənizinə açılan girişin sağ tərəfində Udin tayfası yaşayır. Albanlar və udinlərin torpaqlarından yuxarıda sarmatlar, paxarlar, utidorslar yerləşir. Daha arxada isə amazonlar və savromatlar yaşayır” (Gasanov, 2002). Zaur Gasanovun ümumiləşdirməsinə görə, Iordan hun, alban və seresləri eyniləşdirir və onların hamısını Oğuz (quz, iskit, skif) etnosu kimi təqdim edir. O bildirir ki, hun və albanlar hələ də Xəzər sahilində yaşamaqda davam edirdilər, sereslər isə daha şərqə – Çin sərhədlərinə – köçmüşdülər və Oğuz ölkəsinin sərhədlərini təşkil edirdilər (Gasanov, 2002).

Dediklərimizi bir daha təsdiqləmək üçün hunlar və Azərbaycan məsələsinə nəzər yetirək. “Skif” ifadəsi ilə bağlı tarixi yanlışlıqlar uzun müddətdir ki, dünya tarixşünaslığında yer alıb və hələ də bu səhvləri tam şəkildə aradan qaldırmaq mümkün olmayıb. Halbuki hunların türk mənşəli olması məsələsi demək olar ki, elmi ictimaiyyətdə mübahisə doğurmur. Bu səbəbdən diqqəti hun–skif (əslində oğuz)–türk formuluna yönəltmək məqsədəuyğundur. Əvvəlcə, Atilla (qərb mənbələrində “Attila” kimi qeyd olunur) dövründəki hun–skif (oğuz)–türk ərazilərinə nəzər salaq. Assurların “Aşquz”, Herodotun “S-Kuz” (Skuz) dedikləri, ingilislərin “Scythia”, rusların “Skifiya”, Anadolu türklərinin isə “İskitiya” kimi təqdim etdiyi bu coğrafiya, əslində Oğuz ölkəsi idi. Bu barədə Roma-Bizans tarixçisi Jordanes öz əsərində belə yazır:

İngilis tarixçisi Edward Gibbon “Roma imperiyasının süqutu və dağılması” adlı məşhur əsərində “skif” və “hun” ifadələrini sinonim kimi istifadə etmiş, Atilla ilə Çingizxanı “skif fatehləri” adlandırmışdır (Gibbon, 1994). O həmçinin qeyd edir ki, Atilla qədimdə Çinlə döyüşən Asiya hun hökmdarlarının nəslindəndir (Gibbon, 1994). Bizans tarixçisi Theophylact Simocatta (VI–VII əsrlər) isə özünün “Tarix” əsərində dəfələrlə qeyd edir ki, qonşu xalqlar hunlara “türk” deyirdilər (Simokatta, 1957, I.36; III.77; IV). O, hunları skiflərin – yəni oğuzların – bir qolu kimi təqdim edir və onların hökmdarını “Xaqan” adlandırır. Bu isə aydın şəkildə göstərir ki, belə bir siyasi titul yalnız türk dövlətçilik ənənəsində mövcuddur.

Tarixçi Zaur Gasanov, Prisk və digər müəlliflərin məlumatlarına əsaslanaraq belə nəticə çıxarır: *“Hunlar Herodotun təsvir etdiyi skiflərin (oğuzların) birbaşa xələfləridir və özlərini həmin əfsanəvi skif hökmdarlarının davamçıları və varisləri hesab edirdilər”* (Gasanov, 2002,

s. 253–254). Göründüyü kimi, e.ə. I minilliyin əvvəllərindən başlayaraq geniş bir ərazidə oğuz (quz, iskit, skif, hun) tayfalarının mövcudluğu formalaşmış, bu vəziyyət yüksələn xətlə davam etmişdir. Müxtəlif adlarına baxmayaraq, bu tayfaların əksəriyyəti türk mənşəli olmuş, türk dilində danışmış və bu gün "türk" olaraq tanınmağımızın əsasını qoymuşdur.

Dillə bağlı bu fikri Roma tarixçisi Gnaeus Pompeius Trogus-a istinadla yekunlaşdıraq. O, Madayların (Midiyalıların), parfların və skiflərin (oğuzların) eyni dilin müxtəlif ləhcələrində danışdıqlarına işarə edərək yazır: *"Parfları skiflər (oğuzlar, quzlar, iskitlər) öz içərilərindən qovmuşdular... Onların dili skiflərin və midiyalıların dilinin ortasında olmaqla hər ikisinin qarışığından ibarət idi"* (Trog, 2005).

Hunlar (skiflər, oğuzlar) həm də Avropanın bir sıra xalqlarının təşəkkülündə iştirak etmiş, müxtəlif dövlətlərin əsasını qoymuşlar. Məsələn, Atillanın vəfatından sonra onun ən etibarlı sərkərdələrindən biri – Priskin ifadəsi ilə – "məşhur döyüşçü və anadangəlmə hun" olan Edekon german tayfalarından olan skupların kralı olmuş, onun oğlu Odoakr isə 476-cı ildə İtaliyanın ilk kralı olmuşdur (Gasanov, 2021). Beləliklə, müxtəlif tayfalar qarşılıqlı əlaqədə yaşayır, bir-birlərinin mədəniyyətlərini zənginləşdirir, ümumazərbaycan mədəniyyətini, dini inanclarını və dünyagörüşünü formalaşdırırdılar. Bu qarşılıqlı təsir nəticəsində bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur.

**Nəticə**

Yuxarıda təqdim olunan fakt və mənbələrə əsaslanaraq bir sıra əsas nəticələrə gəlmək mümkündür:

**Birincisi**, Azərbaycan ərazisində yaşayan etnosların birgə fəaliyyəti nəticəsində xalqın təşəkkül prosesi əsasən eramızdan əvvəl I minilliyin birinci yarısında tamamlanmışdır. Bu prosesdə əsas rolu müxtəlif türk mənşəli tayfalar oynamış, eyni zamanda Hind-Avropa və Qafqaz dil-etnik ailələrinə məxsus tayfalar da mühüm iştirak etmişdir.

**İkincisi**, antik mənbələrdə "skif" adı ilə tanıdılan tayfalarla bağlı formalaşmış ənənəvi yanaşmaların yenidən nəzərdən keçirilməsi zəruridir. Mövcud elmi araşdırmalar bu tayfaların böyük ehtimalla oğuz mənşəli olduğunu göstərir. Bu səbəbdən, "skif" adının alternativ olaraq "oğuz", "quz" və ya "iskit" kimi daha uyğun və dəqiq terminlərlə əvəzlənməsi məqsədəuyğundur.

**Üçüncüsü**, "Avesta" və onun əsasında formalaşmış zərdüştlük dini ənənəsi təkcə İran mədəniyyətinin deyil, həm də qədim Azərbaycan və türk mədəniyyətinin ayrılmaz hissəsi kimi dəyərləndirilməlidir. Bu dini-fəlsəfi sistemin bölgədə formalaşmasında və yayılmasında Azərbaycan əhalisinin tarixi rolu unudulmamalıdır.

**Dördüncüsü**, tarixşünaslıqda "oğuz" (quz, iskit, skif) terminlərinin paralel işlədilməsi, həm elmi dəqiqliyin təmin olunmasına, həm də oğuz tayfalarının tarixi kimliyinin daha obyektiv formada təqdiminə şərait yaradır. "Skif" adının isə təhlillərdə ehtiyatla və əsaslandırılmış şəkildə istifadə olunması vacibdir.

**Beşincisi**, qədim Assuriya və digər mənbələrdə rast gəlinən "Antarpatianu", "Andirpatianu", "Adorbayqan", "Azərbayqan" kimi toponimlər "Azərbaycan" adının qədim formaları kimi qəbul edilə bilər. Bu formaların filoloji və tarixi kontekstdə araşdırılması, ölkə adının tarixilik və davamlılıq aspektindən təhlili baxımından əhəmiyyətlidir.

**Altıncısı**, hun tayfalarının oğuz mənşəli olması barədə müxtəlif tarixi mənbələrdə yer alan məlumatlar bu məsələyə yenidən baxılmasını zəruri edir. Bu kontekstdə Atilla dövründəki Hun imperiyası həm də oğuz-türk dövlətçilik ənənəsinin davamı kimi qiymətləndirilə bilər.

**References**

Arrian. (Sergeenko, M. E., Trans.). (1993). *Pochod Aleksandra*. Moscow: MIF. https://facetia.ru/node/2752 (in Russian).

Artamonov, M. I. (1962). *Istoriya khazar*. Leningrad: Nauka. (in Russian).

Avesta. (Sokolova, V. S., Trans.). (2005). *Avesta*. Sankt-Peterburg: Nauka. (in Russian).

Azərbaycan Milli Ensiklopediyası. (2009). *Azərbaycan Milli Ensiklopediyası* (C.1). Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi.

Azərbaycan tarixi. (1994). Z. Bünyadov & Y. Yusifov (Eds.). (C. 1). *Ali məktəblər üçün dərslik*. Azərbaycan Dövlət Nəşriyyatı.

Barnett, R. (1962). Median art. *Iranica Antiqua, 2*.

Diakonov, I. M. (1956). *Istoriya Midii ot drevneyshikh vremen do kontsa I v. do n.e.* Moscow AN SSSR. (in Russian).

Drevnetyurkskiy slovar′. (1962). Leningrad: Nauka. (in Russian).

Fazilli, A. (1992). *Atropatena. E.ə. IV–e. VII əsri*. Elm.

Fazlallah Rashid ad-Din. (1987). *Oguz-Name* (Shukyurova, R. M., Trans.). Elm. (in Russian).

Frye, R. (2002). *Nasledie Irana*. Moscow. (in Russian).

Əliyarlı, S. (Tərtibçi). (2007). *Azərbaycan tarixi üzrə qaynaqlar*. Çıraq.

Gasanov, Z. (2002). *Tsarskie skify: etnoyazykovaya identifikatsiya "tsarskikh skifov" i drevnikh oguzov*. Liberty Publishing House. https://www.academia.edu/33040011 (in Russian).

Ghirshman, R. A. (1973). Propos du Trésor de Ziviye. *Iranica Antiqua, 32*.

Gibbon, E. (1994). *Istoriya upadka i krusheniya Rimskoy imperii*. https://msrabota.ru/content/book_docs/ (in Russian).

Godard, A. (1950). *Le Trésor de Ziviye*. Haarlem.

Guseynov, R. (2015). *Azerbaijan i armyanskiy vopros na Kavkaze*. Baku. (in Russian).

Herodot. (1998). *Tarix* (Trans. P. Xəlilov). Bakı.

Iordan. (n.d.). *O proiskhozhdenii i deyaniyakh getov (Getica)*. https://vostlit.info/Texts/rus/Iordan/text1.phtml (in Russian).

Kalankatlı, M. (1993). *Albaniya tarixi* (Trans. Z. Bünyadov). Elm.

Kazımov, Q. (2003). *Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)*. Təhsil.

Minns, E. H. (1913). *Scythians and Greeks: A survey of ancient history and archaeology on the Euxine from the Danube to the Caucasus*. Cambridge University Press.

Prisk Paniyskiy. (1861). *Skazaniya* (S. Destunis, Trans.). *Uchenye zapiski vtorogo otdeleniya Imperatorskoy akademii nauk, Kniga VIII, Vyp. 1*. Saint Petersburg. https://vostlit.info/Texts/rus/Prisc/frametext22.htm (in Russian).

Simokatta, F. (1957). *Istoriya*. Moscow: AN SSSR. https://inslav.ru/publication/feofilakt-simokatta-istoriya-m-1957 (in Russian).

Slovar′ Avestiyskikh terminov. (n.d.). https://philosophy1.narod.ru (in Russian).

Strabon. (1994a). *Geografiya. Kniga I*. Ladomir. (in Russian). https://gumer.info/bibliotek_

Strabon. (1994b). *Geografiya. Kniga VII*. Ladomir. (in Russian). https://gumer.info/bibliotek_

Strabon. (1994c). *Geografiya. Kniga XI*. Ladomir. (in Russian). https://gumer.info/bibliotek_

Tekhov, B. V. (1980). *Skify i Tsentral'nyy Kavkaz v VII–VI vv. do n.e.* Moscow. (in Russian).

Trogus, G. P. (2005). *Filippovy istorii*. AST. (in Russian).

Tuncay, B. (2012, February 14). Manna dövrünə aid türkcə yazı nümunəsi. *Bextiyar Tuncay – WordPress*. https://bextiyartuncay.wordpress.com

Vəlixanlı, N. (2016). *Azərbaycan VII–XII əsrlərdə: tarix, mənbələr, şərhlər*. Elm və Təhsil.

Yaqut əl-Həməvi. (2020). *Mucəm əl-Buldən* – In Əliyeva, N. *"Mucəm əl-Buldən" əsərində Azərbaycan və Qafqaz*. Elm və Təhsil.

*Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə.* (2006). Təhsil.

Yusifov, Y. (1993). *Qədim Şərq tarixi*. Bakı Universiteti.

Zərdüşt peyğəmbər. (2016). *Avesta. Parçalar* (Trans. İ. Şəms, A. Sultanov & R. Məlikov, Giriş hissəsi). Milli Virtual-Elektron Kitabxana. https://kitabxana.net/files/book

***Telif ve Lisans Bildirimi***
*Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.*